Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi qeyri-maddi aktivlərin satınalınması ilə əlaqədar

***AÇIQ TENDERƏ DƏVƏT EDİR***

Tender 3 lot üzrə keçirilir.

**Tenderin predmeti:**

**Lot 1**. Rəsmi statistika hesabatları və digər statistik məsələlər üzrə proqram təminatlarının hazırlanması işlərinin satınalınması**.**

**Lot 2.** Statistik vahidlərin Dövlət Reyestri üzrə proqram təminatlarının hazırlanması işlərinin satınalınması.

**Lot 3.** SERP proqram təminatına texniki dəstək xidmətlərinin satınalınması.

**Tenderin səlahiyyətli İddiaçıları**:

Tenderdə "Dövlət satınalınmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən satınalınma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 21 dekabr tarixli Qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

- iddiaçılar öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı formada təqdim etməlidirlər;
- müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar;
- iddiaçılar lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs Əliyev Qasım, telefon: (012) 539-81-04).

**İştirak haqqı:**
Lot 1 – 500 manat;
Lot 2 – 500 manat;
Lot 3 – 50 manat.

| | |
|---|---|
| Adı: | Dövlət Statistika Komitəsi |
| Hesab №-si | AZ59CTRE00000000000002238401 |
| VÖEN: | 1300189411 |
| Benefisar (alan) bank: | Dövlət Xəzinədarlıq Agentliyi |
| Kodu: | 210005 |
| VÖEN: | 1401555071 |
| Müxbir hesab: | AZ41NABZ01360100000000003944 |
| SWİFT BİK: | CTREAZ22 |
| XHK | 2238401(002353) |
| Büdcə təsnifatının kodu | 142340 |
| Büdcə səviyyəsinin kodu | 7 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə aidiyyatı orqanlar tərəfindən verilmiş arayışlar;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının ixtisasına dair məlumatlar (sertifikatlar, lisenziyalar, analoji işlərin yerinə yetirilməsində təcrübəsini təsdiq edən sifarişçi müəssisə və təşkilatların tövsiyə məktubları, işlərin yerinə yetirilməsinə rəhbərlik edəcək işçinin ixtisası və təcrübəsi və s.);
- işlərin keyfiyyətinə dair zəmanət.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. Xarici dildə tərtib olunmuş sənədlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun müvafiq qaydada rəsmiləşdirlildikdən (konsul leqallaşdırılmasından və ya apostilin verilməsindən) sonra Azərbaycan dilində notariat qaydasında təsdiq olunmuş tərcümələri ilə birlikdə təqdim edilməlidir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanuna uyğun olaraq keçiriləcəkdir.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, işlərin yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün iddiaçının potensial imkanları (işlərin icra müddəti, peşəkar kadr heyətinin mövcudluğu və s.), analoji işlərin yerinə yetirilməsində təcrübəsini təsdiq edən sifarişçi müəssisə və təşkilatların tövsiyə məktubları, işlərin yerinə yetirilməsinə rəhbərlik edəcək işçinin ixtisası və təcrübəsi haqqında məlumat və s.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 2019-cu il iyun ayının 12-i saat 18:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 2019-cu il iyun ayının 24-ü saat 18:00-dək Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 513) ünvanına (əlaqələndirici şəxs Əliyev Qasım, telefon: (012) 539-81-04) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 2019-cu il iyun ayının 25-i saat 11:00-da yuxarıda qeyd olunan ünvanda 414-cü otaqda açılacaqdır.

**Tender komissiyası**